**Mehdiyev C.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.47-51**
**UOT 34**

# Əmək münasibətləri sahəsində qadın hüquqlarının müdafiəsi

**Xülasə:** Qadınların müasir dövrdə əmək münasibətləri sahəsində istifadə etdikləri hüquqlarının müdafiəsi uzun tarixi inkişafın nəticəsi olaraq formalaşmışdır. İşləyən qadınlara cəmiyyətimizin üzvü kimi xüsusi status verilməklə, onların əmək hüquqlarının tam və maneəsiz həyata keçirilməsini təmin etmək məqsədilə milli əmək qanunvericiliyində "Qadınların əmək hüququ və onun həyata keçirilməsində təminatları" adlı ayrıca otuz yeddinci fəsil ayrılmışdır.

**Açar sözlər**: əmək hüququ; iş vaxtı; qadınların iş vaxtı; pandemiya; əmək münasibətləri.

Müasir dövrdə insan hüquqları cəmiyyətin inkişafının əsas amillərindən biri olmaqla, dövlət hakimiyyəti, eləcə də vətəndaş cəmiyyətinə münasibətdə başlıca indikator rolunu oynayır. Bəşəriyyət yarandığı gündən, hələ dövlət mövcud olmadığı dövrlərdə insanlar öz hüquq və azadlıqları, eyni zamanda əmək hüquqları uğrunda mübarizə aparmağa başlamışlar. İnsanlar qəbilə formasında yaşadığı dövrlərdə də fərdi və kollektiv əməklə məşğul olmuşlar. Lakin müasir dövrümüzdə əmək hüququnun inkişafı sənaye əsrinin başlaması ilə daha çox bağlanmaqdadır. Bu dövr 18-ci əsrin sonlarına təsadüf edir və daha çox Qərb ölkələri, xüsusən, İngiltərə ilə daha çox bağlıdır.

Qərbdə sənaye inqilabının genişlənməsi (buxar maşını, telefon və teleqrafın kəşfi) sənayenin inkişafını mühüm şəkildə dəstəkləmiş, sənayenin inkişafı davamlı qaydada daha çox məhsulun istehsal olunmasına səbəb olmuşdur. Sənaye inqilabı ilə birlikdə bir çox insan kəndlərdən şəhərlərə köç etmiş, xırda və davamlı olmayan emalla məşğul olan insanlar artıq öz əmək fəaliyyətini işəgötürənlərlə bağlamağa başlamış, bu da öz növbəsində yeni peşələrin yaranmasına, eyni zamanda peşəkar formada işçi və işəgötürən anlayışlarının meydana gəlməsinə şərait yaratmışdır. İnsan hüquqları konsepsiyasının inkişafında əsas mərhələ formal bərabərlik və azadlıq prinsiplərinin formalaşdığı XVII - XVIII əsrlər hesab edilir. XVII əsrdə insan hüquq və azadlıqlarının müdafiəsində öndə gedən dövlət İngiltərə olmuşdur. Bu dövrdə formalaşmış ictimai şüur vətəndaş cəmiyyətinin əsaslarını və inkişaf yolunu müəyyənləşdirməklə, dövlətin xarakterinə həlledici təsir göstərmişdir [3, s. 50].

Qərb ölkələrində sənaye inqilabının baş verməsi iş vaxtının uzun olması, əmək haqqının az olması, qadınların və azyaşlıların ağır işlərə cəlb edilməsi və işçilərin əmək hüquqlarının müdafiəsi ilə bağlı digər problemlərin həlli sahəsində aparılan mübarizəyə təkan vermişdir. Qeyd olunan problemlər əmək hüququnun bir hüquq sahəsi kimi hələ tam formalaşmadığı dövrə təsadüf edir və məhz bu kimi problemlər əmək hüququnun müstəqil hüquq sahəsi kimi formalaşmasın öz təsirini göstərmişdir. Həmin dövrdə işçilər əmək münasibətlərinin zəif tərəfini təmsil edirdi və iqtisadi liberalizm şəraitində onların öz hüquqlarını tələb etmək şəraiti hələ yaranmamışdı. Bunun nəticəsi kimi işçilər işəgötürənlər tərəfindən, iş vaxtı məhfumu olmadan, həftə ərzində istirahət günü

♦ **Mehdiyev Ceyhun Ağasəməd oğlu -** Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının doktorantı (Azərbaycan). E-mail: vergi3@gmail.com

verilmədən gün ərzində 15-18 saat işlədilirdi. Lakin güclü dövlət məhfumunun və dövlətçilik ənənələrinin formalaşması hökümətləri daxili problemlərə yanaşmada müəyyən zəruri tənzimləmələr etməsinə gətirib çıxardı.

19-cu əsin sonları - 20-ci əsrin əvvəllərində beynəxalq təşkilatlar dövlətlərin öz əmək qanunvericiliklərinə vahid yanaşmanın tətbiq etmələri üçün zəruri olan bəzi normativ aktlar qəbul etməyə başladı. 11 aprel 1919-cu il tarixdə Millətlər Liqasının tərkibində Beynəlxalq Əmək Təşkilatı (BƏT) yaradıldı. Hazırda həmin qurum BMT-nin nəzdində fəaliyyət göstərir və 187 dövlət onun üzvüdür.

Qadın hüquqları, o cümlədən qadınların əmək münasibətləri sahəsində hüquqlarının müdafiəsi insan hüquqların əsas tərkib hisslərindən biridir. Müasir cəmiyyətlərdə və ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktlarda qadınlar kişilərin bərabər hüquqlara malik olması təsbit olunmuşdur. Qadınlar cəmiyyətin yalnız siyasi həyatında deyil, müxtəlif sahələrdə özlərini çox uğurla göstərə bilir və bu, onların cəmiyyətdəki statusuna müsbət təsirlər göstərmiş, onların sosial statusunun inkişafına səbəb olmuşdur.

Əmək münasibətləri sahəsində qadın hüquqlarının inkişafı məsələlərinə toxunarkən qeyd etməliyik ki, qadınlar da tarixin bütün dövrlərində indiki kimi güclü sosial və əmək hüquqlarına malik olmamışlar. Onların əmək münasibətləri sahəsində hüquqları mərhələli şəkildə inkişaf etmişdir. Qadınların kişilərlə bərabər və ədalətli əmək hüququ uğrunda mübarizəsi 19-cu əsrdən etibarən vüsət almağa başlamışdır. Mübarizənin başlanğıc tarixini 8 mart 1857-ci il qəbul etmək ədalətli olar. Əmək hüququnda qadınların subyektliyi məsələsinə baxdıqda görərik ki, onların bu hüquq sahəsində subyekt kimi tanınması prosesi 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərində Şimali Amerika və Qərbi avropa ölkələrindən başlamışdır. Qərb ölkələrində milli qanunvericilik səviyyəsində qadınların əmək hüququnun tam hüquqlu subyekti kimi qəbul edilməsi və tanınması cəhdlərindən sonra bu tendensiya beynəlxalq təşkilatların iclaslarının müzakirə predmetinə çevrilmiş və nəticədə nüfuzlu beynəlxalq təşkilatlar qadınların bütün hüquqlarının, eləcə də əmək hüquqlarının tanınması, onların əmək münasibətlərinin tam hüquqlu üzvü kimi qəbul edilməsi və onların qeyd olunan hüquqlarının beynəlxalq səviyyədə müdafiə edilməsi məqsədilə bir sıra sənədlər qəbul edilmiş və bununla da qadınlar əmək hüququnun tam hüquqlu subyektinə çevrilmişlər.

Qürurvericidir ki, müsəlman şərqində qadınlara seçki hüququnu verən ilk dövlət kimi tarixə müasir Azərbaycan Respublikasının varisi olduğu 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti düşmüşdür. Qadın problemi Cümhuriyyət dönəmində də ən vacib məsələlərdən biri idi. Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti qadınların cəmiyyətdəki çox zəif olan mövqelərinə biganə qalmamışdır. Azərbaycan Xalq Cümhuriyyəti elan olunandan qısa bir müddət sonra Parlamentin 10 dekabr 1918-ci il tarixdə keçirilmiş ikinci iclasında Azərbaycan qadınlarına İslam aləmində ilk dəfə olaraq seçilmək hüququ dövlət səviyyəsində verilmiş oldu [1].

Qadınların əmək hüququ məsələsini araşdırmazdan əvvəl əmək hüququnun tarixi inkişafına qısaca nəzər salmağımız lazıcdır. Məlum olduğu kimi, hüququn əsas sahələrindən olan əmək hüququ əmək münasibətlərini tənzimləyən hüquq sahəsidir. Professor A.M.Qasımovun fikrincə, əmək hüququ kollektiv əmək münasibətlərini tənzimləyir, məhz kollektivdə insanların əməklə bağlı münasibətləri meydana çıxır və təşəkkül tapır. Fərdi əmək zamanı insanların münasibətləri əmək prosesində deyil, əməyin nəticələri ilə bağlı yaranır. Buna görə də insanın təkbaşına, kollektivdən kənarda işlədiyi zaman fərdi əmək münasibətləri əmək hüququ ilə tənzimlənmir [2].

Əmək sahəsində qadın hüquqlarının inkişafı bu sahədə bütün hüquqların inkişafı ilə sıx surətdə bağlıdır. Belə ki, ABŞ-da əmək hüquqları ilə bağlı olan və yuxarıda sadalanan bir çox sənəd yalnız qadınlara aid edilməmiş, cinsindən asılı olmayaraq bütün işçiləri öz təsir dairəsinə almış, bu da öz növbəsində əmək sahəsində qadın hüquqlarının inkişaf etməsi ilə nəticələnmişdir. ABŞ-da qadınların əmək hüquqlarının inkişafı beynəlxalq aləmdə də bu məsələyə diqqəti artırmış, qadınların əmək sahəsində ayrı-seçkilikdən müdafiəsi 20-ci əsrdə beynəlxalq aləm üçün çox mühüm məsələyə çevrilmişdir. İnsan hüquqlarının müdafiəsi sahəsində yeni era başlanmış və qadın hüquqları ilə də bağlı mühüm konvensiyalar qəbul edilmişdir. Bunların bəzilərinin adlarını xronoloji ardıcıllıqla qeyd edirik:

1) BMT Baş Məclis tərəfindən 1948-ci il dekabrın 10-da qəbul olunmuş "İnsan hüquqlarının ümumi bəyannaməsi";

2) Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyası;

3) Beynəlxalq Əmək Təşkilatının 1975-ci il "Qadın işçilər üçün imkanların və rəftarın bərabərliyi haqqında" Bəyannaməsi;

4) BMT-nin 1979-cu il "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası;

5) Beynəlxalq Əmək Təşkilatının 1981-ci il "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" Konvensiyası və s.

1948-ci il dekabrın 10-da qəbul olunmuş "İnsan hüquqlarının ümumi bəyannaməsi"ndə bütün insanların heç bir ayrı-seçkiliyə yol verilmədən əsas hüquq və azadlıqlardan istifadə etmələri prinsip şəklində müəyyən edilmişdir. Ümumiyyətlə, dünyada əmək hüquqlarının və qadınların əmək münasibətləri sahəsində hüquqlarının inkişafı 20-ci əsrin əvvəllərindən başlayaraq inkişaf etmiş dövlətlərdə sənayenin inkişaf səviyyəsində olan sıçrayış, bir çox dövlətlərdə yeni və nəhəng istehsal müəssisələrinin və böyük şirkətlərin yaranması ilə sıx bağlıdır. Təsadüfi deyildir ki, müasir dünyada mövcud olan bir çox nəhəng şirkətlərin inkişaf dinamikası əmək hüquqlarının inkişaf dinamikası ilə uyğun tempə malikdir.

Qadınların əmək münasibətləri sahəsində bu gün istifadə etdikləri hüquqlarının müdafiəsi uzun tarixi inkişafın nəticəsi olaraq formalaşmışdır. Onların əmək hüquqlarının tam və maneəsiz həyata keçirilməsini təmin etmək məqsədi ilə işləyən qadınlara cəmiyyətimizin üzvü kimi xüsusi status verilmiş və Əmək Məcəlləsində müstəqil otuz yeddinci fəsil nəzərdə tutulmuşdur.

## Biblioqrafiya

1. Allahverdiyev S.S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Darslik. - Bakı: Digesta nəşriyyatı, 2009. - 444 s.

2. Qasımov A.M. Əmək hüququ. - Bakı: Letterpress, 2016. - 840 s.

3. İsmayılov M. İnsan hüquqları institutunun bəzi nəzəri problemləri //Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi, 16-cı buraxılış. Bakı: Adiloğlu, 2006, s. 50-52.

**Mehdiyev J.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.47-51**
**UDC 34**

## Protection of women’s rights in the field of labor relations

**Abstract**: The protection of the rights of women in the field of labor relations, which they enjoy today, was formed as a result of a long historical development. The article determines that in order to ensure the full and unimpeded exercise of their labor rights by granting working women a special status as members of our society, a separate thirty-seventh chapter is devoted to the national labor legislation, which is called “Women's labor law and guarantees in its implementation”.

**Keywords:** labor law; working hours; working hours for women; pandemic; labor relations.

## References

1. Allakhverdiyev S.S. Frameworks of the Constitution of Azerbaijan Republic and law. Textbook. Baku, Digesta Publ., 2009, 444 p. (in Azerbaijani).
2. Gasymov A.M. Labour law. Baku, Letterpress Publ., 2016, 840 p. (in Azerbaijani).
3. Ismayilov M. *Insan huquqlari institutunun bezi nezeri problemleri* [Some theoretical problems of the Institute of Human Rights] //*Azerbaycan Respublikasinda dovlet ve huquq qurucuIugnun aktual problemleri.* Elmi meqaleler mecmuesi, 16-ci buraxilis -*Actual problems of state and law building in the Republic of Azerbaijan*. Collection of scientific articles, 16 issue. Baku, Adiloglu Publ., 2006, pp. 50-52.

---

♦ **Mehdiyev Jeyhun Agasamad oglu** - Doctoral student of the Department of Labor and Environmental Law of the Baku State University (Azerbaijan). E-mail: vergi3@gmail.com

**Мехтиев Дж. А.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.47-51**
**УДК 34**

## Защита прав женщин в сфере трудовых отношений

**Аннотация:** Защита прав женщин в сфере трудовых отношений, которыми сегодня они обладают, сформировались в результате длительного исторического развития. В статье определяется, что для обеспечения полного и беспрепятственного осуществления своих трудовых прав, предоставив работающим женщинам особый статус, как членов нашего общества, в национальном трудовом законодательстве посвящена отдельная тридцать седьмая глава, которая называется «Трудовое право женщин и гарантии при его осуществлении».

**Ключевые слова:** трудовое право; рабочее время; рабочее время женщин; пандемия; трудовые отношения.

## Библиография

1. Аллахвердиев С.С. Основы Конституции Азербайджанской Республики и права. Учебник. - Баку: Дигеста, 2009. - 444 с. (на азерб. яз.).

2. Гасымов А.М. Трудовое право. - Баку: Letterpress, 2016. - 840 с. (на азерб. яз.)

3. Исмаилов М. Некоторые теоретические проблемы института прав человека // Актуальные проблемы строительства государства и права в Азербайджанской Республике. Собр. науч. статей. Вып. 16. - Баку: Адильоглы, 2006. - С. 50-52 (на азерб. яз.)

♦ **Мехтиев Джейхун Агасамад оглы -** докторант кафедры «Трудовое и экологическое право» Бакинского Государственного Университета (Азербайджан). E-mail: vergi3@gmail.com